Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №003 (178) * Mart 2018-ci il

# Baş prokuror Qobustan şəhərində vətəndaşları qəbul etmişdir





***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.***

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov yanvarın 19-da Qobustan rayon prokurorluğunun inzibati binasında Qobustan, Göyçay, Kürdəmir, Şamaxı, İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Qobustan rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 23 vətəndaş qəbul edilmiş, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapmışdır.

Qəbul zamanı həmçinin, müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.



Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etmişlər.

***Ruslan Şahbazov,***
***Qobustan qəzetinin baş redaktoru***

# 5 mart - Bədən tərbiyəsi və idman günü münasibətilə tədbir keçirilmişdir

***05 mart 2018-ci il tarixdə 5 Mart - Bədən tərbiyəsi və İdman günü münasibətilə Qobustan rayon İdman ictimaiyyətinin bayram tədbiri keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Gənclər və İdman idarəsinin rəisi Qadir Əkbərov görüş iştirakçılarını əlamətdar gün münasibəti ilə təbrik etdi və bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 04 mart 2005-ci il tarixdə imzaladığı Sərəncamla 5 mart Azərbaycanda Bədən tərbiyəsi və idman günü elan edilmişdir. Bu gün Azərbaycanda idmana diqqət və qayğı yüksək səviyyədədir. Bu diqqət və qayğının nəticəsidir ki, 2017-ci ildə Qobustan idmançıları zona, respublika və beynəlxalq yarışlarda 83 qızıl, 60 gümüş və 72 bürünc olmaqla 215 medal qazanmışlar.

*(Ardı səh.2-də)*



## Rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Qobustan şəhərində görüş keçirib

*Bu gün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Naziri Ramin Quluzadə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Qobustan şəhərində görüş keçirib.*



Səh. 7

## "31 mart - Azərbaycanlıların soyqırımı günü" ilə əlaqədar Qobustan rayonunda tədbir keçirildi

*Hər birinizə məlumdur ki, təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırımı siyasəti həyata keçirmiş, son iki əsrdə Qafqazda Azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır.*



Səh. 7

## Tibbi müayinə davam edir

*Prezidentimiz cənab İlham Əliyevin ölkə əhalisinin tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq, Rayon İcra Hakimiyyətində tədbirlər planı hazırlanmış və fevralın 10-dən əhalinin tibbi müayinəsinə başlanılmışdır.*



Səh. 6

# 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə bayram tədbiri keçirildi





**Tədbirdə Qobustan Rayon İcra Hakimiyyəti başçısı cənab Adil Məmmədov, rayonun ictimai-siyasi həyatında fəal iştirak edən dövlət, elm və təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə çalışan, həmçinin ictimai təşkilat və birliklərə rəhbərlik edən qadınlar iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə açan Qobustan rayon İcra hakimiyyəti başçısı cənab Adil Məmmədov bütün xanımları bayram münasibəti ilə səmimi qəlbdən təbrik etdi.Onlara uzun ömür,can sağlığı və iş fəaliyyətlərində yeni-yeni uğurlar arzuladı.

Bu gün birinci Vitse prezident Mehriban xanım Əliyevə bütün dünyaya sübut edir ki, Azərbaycan qadını həm gözəl ana, həm də fəal ictimai xadim ola bilər. Respublikamızın bir çox sahələrində rəhbər işçi kimi çalışanların böyük bir hissəsini qadınlar təşkil edir. Bütün bunların təməlində isə Ümummilli Liderin uzaqgörən siyasətinin bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.Tədbir konsert proqramı ilə davam etdi.

Daha sonra söz Qobustan rayon İcra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Güləliyevaya verildi. O, bütün xanımları təbrik etdi və Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən rayonun ictimai-siyasi həyatında öz fəallığı ilə seçilən Zümrüd Şərifovaya Tərəqqi medalını təqdim etdi. Bu medal Qobustan qadınlarına hörmətli cənab Prezidentimiz tərəfindən təltif edilmiş ikinci Tərəqqi medalı idi. İlk dəfə Qobustan qadınları arasında bu medala layiq görülmüş zəhmətkeş xanım Solmaz Mehralıyeva olmuşdur. Sonra T.Güləliyeva Qobustan qadınlarına göstərilən diqqət və qayğıya görə başda möhtərəm Prezidentimizə, sonra isə Qobustan RİH-nin başçısı A.Məmmədova bütün Qobustan qadınları adından təşəkkürünü və minnətdarlığını bildirdi. Sonra səmərəli iş fəaliyyətinə görə seçilən xanımlara İcra başçısının fəxri fərmanları və qiymətli hədiyyələri təqdim olundu.




***Niyal Xanəliyev***

# 5 mart - Bədən tərbiyəsi və idman günü münasibətilə tədbir keçirilmişdir






*(Əvvəli səh.1-də)*

Qobustan rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi V.Zamanov, məşqçi-müəllimlərdən Azərbaycan Respublikasının Əməkdar Məşqçisi Ş.Səfərli, O.Yahyaev, P.Balaqardaşov, F.Mehbalıyev, F.Əzizov, Q.Ələkbərov, İ.Şirəliyev çıxış edərək gənc idmançıları 5 Mart - Bədən tərbiyəsi və idman günü münasibəti ilə təbrik etmiş, onlara idman yarışlarında yüksək nailiyyətlər arzulamışlar.

Tədbirin sonunda bədən tərbiyəsi və idman sahəsi üzrə nailiyyət qazanmış məşqçilərədən Ş.Səfərli, Q.Ələkbərov, V.Etibarov, İ.Rzazadə, İ.Şirəliyev, F.Əzizov, K.Həsənov, idmançılardan B.Mirzəyev, F.Ağagülov, R.Əkbərli, F.Babaşov, M.Əsgərov, İ.Qurbanov, H.Sahibov, N.Yaqubov, İ.Xankişiyev, M.Nəbiyev və başqaları 5 Mart - Bədən tərbiyəsi və İdman günü münasibətilə

Gənclər və İdman idarəsinin fəxri fərmanları ilə təltif olunmuşlar.

***Redaktor***

***8 Mart Beynəlxalq Qadınlar Günü Azərbaycan təqviminin də ən fərəhli günlərindən biridir. Çünki bu bayram Azərbaycan anasının, tarixən ağlı, zəkası, gözəlliyi, namusu, mərdliyi, sədaqəti, fədakarlığı ilə millətinə, torpağına başucalığı gətirən Azərbaycan qadınının bayramıdır.***
***Tarixin bütün dönəmlərində qadınlarımız cəmiyyətimizin mənəvi dayağı olmuş, ölkəmizin simasını müəyyənləşdirmək üçün böyük fədakarlıqlar göstərmişlər. Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və səadəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizin ictimai, siyasi, elmi, təhsil və mədəni həyatında fəal rol oynamış, üzərinə düşən şərəfli analıq və vətəndaşlıq vəzifələrini uğurla yerinə yetirmişdir.***
***Müsahibim Qobustan şəhər 03 saylı məktəbin dil-ədəbiyyat müəllimi Azərbaycan Respublikasının Əməkdar müəllim Sədaqət Məhərrəmovadır. 1988-ci ildə BDU-nun filologiya fakultəsini bitirib.Həmin ildən A.Qayıblı adına şəhər 03 saylı məktəbdə müəllım işləyir.Təhsilimizin fədailərindən biri olan müəllim öz işinin vurğunudur. Təkcə dərs deməklə kifayətlənmir.Rayonda keçirilən bütün ictimai tədbirlərin iştirakçısı olmaqla bərabər, həm də ən fəal təşkilatçılarından biridir.***

# "Qadın gülərsə, bütün bəşəriyyət güləcək"

***- Sədaqət xanım, ilk öncə sizdən "Azərbaycan cəmiyyətində qadın kimdir?" sualına cavab istəyirəm.***

-Bütün cəmiyyətlərdə,bütün dövrlərdə qadın hamını şəfqətlə qucaqlayan,hər kəsin üstündə yarpaq kimi əsən, ailəsinin, yaxınlarının, ətrafdakı hər kəsin sevincini görəndə qönçə kimi açılan,onlarda narahatlığını, kədərini görüncə yarpaq kimi solan bir varlıqdır. O, hər zaman xoş şeylər arzular,hər kəsə sevinc paylamaq istər.Qadın xilqət hadisəsinin ən mühün tablosudur.Qadın daxili aləmi ilə ən uca şəfqət abidəsidir.Onun şəfqəti təbiətindən irəli gəlir.O, ömrünün sonuna qədər bütün insanlara şəfqətlə baxar,hamıya qucaq-qucaq sevgi bəxş edər. Bu insanlar onun ata -anası,bacı-qardaşı,övladı,həm də yaşadığı mühütün,hətta bütün dünyanın insanlarıdır.Bu onun ən müqəddəs vəzifəsidir.

Qadın hər şeydən əvvəl anadır. Təbii ki,mən bioloji analığı nəzərdə tutmuram. O, mənəvi bir hissdir. Sən təkcə insanları deyil,bütün təbiəti özündən qopan bir zərrə bilirsən. Onda hər kəs, hər şey sənə məhrəm olur, doğma olur.Və sən sənin olan o zərrələri qoruyursan, sevirsən,onların zərər görməməsi üçün bütün həyatın boyu nə qədər əzab-əziyyət çəksən də bundan usanmır, bezmirsən.Əksinə, o səni daha güclü edir.Bəzən sən düşündüyündən daha çox üstünlüklərə qadir olduğunu dərk edirsən.

Uzun, şanlı, şərəfli tariximizdən üzübəri Azərbaycan qadını tarixən müdriklik,müqəddəslik simvolu olub,iti zəkası,dərin düşüncəsi,ilə dövlətçilik işində də, mədəni inkişafımızda da müstəsna xidmətlər göstərir.Bizim qadınlarımız milli şərəf və nəcabətimizin ən sağlam təməl daşıdır.Yəqin ona görə deyirlər"Hər güclü kişinin arxasında bir ağıllı qadın dayanır"

***-Növbəti suallarımı birbaşa şəxsən sizin həyatınızla bağlı olaraq davam etdirmək istəyirəm. Bütün peşə sahiblərinə verilən ənənəvi sualdan başlayaq.Əməkdar müəllimsiniz, rayonumuzda sizi öz işini sevən bir insan kimi tanıyırlar və siz müəllim adının şərəfini ləyaqətlə qoruyanlardansınız. Necə oldu ki, müəllim oldunuz.?Ümumiyyətlə müəllimlik, məktəb sizin üşün nə deməkdir.?***

-Hələ orta məktəb şağirdi ikən müəllimlərimin heyranı idim. Onlara ən müqəddəs varlıq kimi baxırdım.Elə bu ğün də belə düşünürəm.Mən onlara oxşamaq istəyirdim. Müəllim olmaq istədiyimi biləndə görkəmli pedaqoq Azərbaycab Respublikasının Əməkdar müəllimi Davud Orucovun dediyi sözləri yaxşı xatırlayıram. O deyirdi:"Bütün sənətlərin öz gözəlliyi var,amma müəllim hər zaman onların hamısından ucada dayanıb .Doğma bala bildiyin şagirdlərin həkim, musiqiçi, mühəndis, bənna, sürücü, hüquqşünas da olacaq.Sən isə onlarin hamısının müəllimi olacaqsan, hamısının müvəffəqiyyətində sənin əməyin olacaq. Bundan şərəfli nə ola bilər ki. "

Müəllimlik, məktəb həyatımın mənası, yaşam anlamı, qibləgahımdır ----desəm,yanılmaram. Ğünümün çox hissəsi məktəbdə keçir. Sizə məzəli və maraqlı bir fakt söyləyim.Məktəbin ümumi qapısınının 3 açarı var .Bu acarlardan biri həmişə məndə olur. Bazar günləri, tətil günləri də məktəbdəyəm.Bəzən başımız uşaqlarla işə elə qarışır ki, bir də baxıb görürük hamı gedib qapını da baxlayıbar. Uşaqlar bu hadisəyə doyunca gülür, mən isə artıq öyrəşmişəm. Əgər istəsəz müsahibəmin bu yerini kəsərsiniz ,amma hər şeyi olduğu kimi demək istəyirəm. Həm də ona görə ki, bəlkə mənim həyat tərzim, işimə bağlılığım gənc müəllimlərə, gələcəkdə bu peşəni davam etdirmək istəyənlərə müəllimliyin əsl anlamını dərk etməyə kömək edər. Mən fiziki cəhətdən bir az ağrılı adamam.Bəzən elə olur ki, məktəbə çox cətinliklə gedirəm Ağrıdan ayaqlarımı güclə sürüyürəm. Elə fikirləşirəm ki, yarı yolda qalacağam. Elə ki məktəbin həyətinə çatdım, tamam başqa adam oluram,ağrı- acıdan əsər əlamət qalmır.Sanki ocaq, pirdi bu məktəb.Tam səmimiyyətlə yaxınlarıma dediyim bir fikri sizə də söyləyirəm: " Bu maddi dünyaya gö z yumacağım son gün də məktəbdə olsun. Bir şagirdim iki zərif barmaqları ilə gözümə sığal çəksə,bu mənim üçün ən şərəfli sonluq olar."Tütək səsi" filimdə işlədilən bir ifadə var.Sevgidən bəhs olunanda "ürək-könül məsələsidir"- deyirdi İsrafil kişi. Vallah, müəllimlik də "ürək-konül" məsələsidir. Qarşısındakı şagirdi sevəsevə öyrətməlisən,bu işdən zövq almalısan. Bu peşəni təkcə öz həyatlarını təmin etmək xatiriənə seçənlər,və ya ali məktəblərə qəbul imtahanında topladıqları balların nisbətən aşağı olmasına görə seçənlər çox təsadüf edilən haldır ki, yaxşı müəllim ola bilmirlər.Yaxşı müəllim olmayanın şəxsiyyət yetişdirməsi müsbət nəticə vermir.

***- Bəs indi müəllim şağird münasibətindəki qüsurlar,yəni müəllimlərə əvvəlki illərdə olunan hörmətin azalması, necə deyərlər, indiki şagirdlərin daha çətin tərbiyəsi sizi narahat etmirmi?***

- Mən, ümumiyyətlə, o fikirdə deyiləm ki, müəllimə hörmət azalıb.Əksinə, müəllim bütün dövrlərdə müəllimdir. İstər keçmişdə,istərsə də indi müəllım-şagird münasibətləri elə qurulmalıdır ki, cəmiyyətə xeyir verən insanlar yetişdirmək mümkün olsun. Bu gün də cəmiyyətimizin intektual səviyyəli, yüksək bəşəri dəyərləri , ən gözəl insani keyfiyyətləri özündə birləşdirən, zəngin mənəviyyata sahib şəxsiyyətlərə böyük ehtiyacı var. Bu baxımdan Azərbaycan müəlliminin üzərinə böyük vəzifələr düşür.Bu şərəfli vəzifənin öhdəsindən gəlmək üçün müəllim həmişə yenilik axtarmalıdır. Cəmiyyətimiz üçün əsl vətəndaş yetişdirmək mənim tədtis etdiyim dil-ədəbiyyat fənnini tədris edən müəllimlərin əsas vəzifələrindən biridir.Bu fənni nahaq yerə "insanlıq dərsi" hesab etmirlər ki. Mən 29 ildir ki, müəllim işləyirəm.Bu illər ərzində həmişə calışmışam ki, şagirdlərlə aramızda qarşılıqlı məhəbbət, anlaşma, gözəl münasibət olsun.Əgər şagirdi sevə bilməsən, ondan özünə qarşı məhəbbət gözləmə. Bəzən deyirlər " şagird müəllimdən qoxmalıdır."Mən heç vaxt bu prinsiplə işləməmişəm.Mən işimi elə qurmalıyam ki, şagird məni sevməli, mənə hər zaman ehtiyacı olmalı, mənimşün darıxmalı və mən onun ən yaxın adamı olmalıyam.O zaman dərsini də oxuyacaq, tərbiyəsi də əla olacaq. Əgər o sənə inanacaq, sənə güvənəcəksə, sən də istədiyinə nail olacaqsan.

XXI əsr təlim nəzəriyyəsi insanın şəxsiyyət olaraq intellektual səviyyəsinin daha yüksək olmasına xidmət edir.Artıq bu günün şagirdi intelektual səviyyəsinə görə illər öncənin şagirdlərindən kəskin şəkildə fərqlənir. Əlbəttə, Azərbaycan təhsili dünyanın inkişaf etmiş ölkələri kimi yeni insana yeni baxış prinsiplərinə əsaslanır.Lakin istənilən dövrlərdə müəllim öz şagirdinə ən gözəl nümunə olmalıdır. Şagirddə aşılamaq istədiyin hər bir müsbət xüsusiyyəti ilk olaraq özündə təsdiq etməlidir ki, sonradan onu şagirdinə ötürə bilsin. Xalq arasında belə bir deyim var."Şagird müəllimin güzgüsüdür" Müəllim ona nə veribsə, güzgüdə onu görəcək. Dahi şairimiz Nizami Gəncəvinin hikmətini yada salaq. "Zalım şahla zahidin dastanı " hekayəsində olduğu kimi. Bəlkə müqayisə bir qədər yerinə düşmədi, amma nə edirksə, onun nəticəsini görürük. İstənilən bir şagirdin etdiyi səhv,naqis hərəkətdə hər bir müəllim özünə belə bir sual verməlidir:" Görəsən , mən harada səhv etdim?" Bu sualı özümüzə verməmək üçün isə işimizin məsuliyyətini tam dərk etməliyk. Şagirdinin həyatda böyük uğur qazanmasını təmin etmək istəyən müəllim onu inandırmalıdır.

***-Bayram günü eşitdiyiniz hansı təbrik, aldığlnız hansı hədiyyə sizi daha çox təsirləndirir?***

- Mən, ümumiyyətlə, maddiyyat adamı deyiləm. Məni tanıyanlar bunu gözəl bilir. Mənim üçün gördüyüm ən çətin işin belə qarşılığında bir xoş təbəssüm, bir parça kağız üzərinə yazılmış səmimi ürək sözü, şirin bir söz kifayət edir. Bayramlarda, xüsusən, 8 Mart Qadınlar günündə dərs dediyim sinfin uşaqları təbrik məktubları yazır, mənə olan oz təmiz, saf hisslərini uşaq məhəbbəti ilə ifadə etməyə çalışırlar. İnanın hər bayram bu məktunları səbirsizliklə gözləyirəm . Bu mənim bayram günü aldığım ən qiymətli hədiyyədir.

***-Sizdən danışanda deyirlər ki, hər zaman özünüzü xoşbəxt hesab edirsiniz. Bunun səbəbi nədir?***

-Mən özümü xoşbəxt müəllimlərdən hesam edirəm. Şagirdlərimin çoxu ali təhsil alıb. Ali təhsilli olmasalar belə, həyatda öz yerlərini tapıb, Onlara baxıb fəxr edirəm.Onların həyat yolunu ardıcıl izləyirəm. Onlar şad günündə olduğu kimi narahat günlərində də məni axtarırlar. Demək istədiyim budur ki, müəllimlik təkcə məktəbdə dərs deməklə bitmir.Əsas odur ki, sən hər zaman onlara müəllim olaraq qalırsan.Onlar nə qədər boyüsələr, yaşlansalar da, sənə ehtiyacları olduğu vaxt yanlarında olmalısan. Mübaliğəsiz deyə bilərəm ki, bu gün şagirdlərimlərimin çoxu ilə əlaqə saxlayıram. İnanın, bayramlarda telefonum susmur. Gözüm elə qapıda olur. Kimsə mütləq gəlməlidir.Onlardan gördüyüm hormət ürəyimi dağa döndərir.Kücədə, yolda rastlaşanda hansı səmtə getməklərindən asılı olmayaraq maşınlarını saxlayıb məni məktəbə,evə aparırlar.Bir sözlə, qayğıma qalırlar. Bax budur müəllimə sevgi, hörmət, müəllim səadəti.

Xoşbəxtlik haqqında gözəl bir deyim var," Xoşbəxt o kəsdir,ki işdən evə evdən işə tələsir. Ailəmizin böyüyü kimi onların da bütün qayğıları mənə aiddir.Bu da mənim sevərək yerinə yetirdiyim missiyadır.

***-Sonda rayonumuzun xanımlarına nə demək istərdiniz?***

- Çox söz söyləyə bilərəm, xüsusən gənc xanımlara demək istəyirəm ki,tutduqları mövqedə, çalışdıqları sahədə hər zaman qabaqcıl olmağa çalışsınlar. İctimai işlərdə fəal olsunlar.Düzünü deyim ki, mən rayonumuzun gənc xanımlarından bir az narazıyam.Onlara tövsiyəm budur ki,cəmiyyətin bütün sahələrində öz sözlərini demək üçün cəsarətli olsunlar.Təhsillərini, dünyagörüşlərini artırmaq üçün durmadan çalışsınlar. Unutmaq olmaz ki, təhsilli qadın, təhsilli ana sağlam cəmiyyətin yaranmasında böyük rol oynayır.

Azərbaycan qadınının xoşbəxtliyi ondadır ki, bizim ölkəmizdə qadına yüksək dəyər verilir. Qadınlarımız bu qiymətə layiq olsunlar. Sonda bütün qadınlarımızı 8 Mart Beynəlxalq Qadınlar Günündə ürəkdən təbrik edir, hər zaman gülərüzlü olmalarını arzu edirəm. Hüseyn Cavidin təbrincə desək " Qadın gülərsə, bütün bəşəriyyət güləcək"

***Ruslan Şahbazov***

# Gənclər, sizləri təbrik edirəm

***Bildiyimiz kimi 1997-ci ildə Gənclər günü Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə təsdiq olunub.***

Bu, Ulu Öndərimizin gəncilyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub.

Ölkəmizdə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün daha qətiyyətlə davam etdirilir. İndi Azərbaycanın hər yerində gənclər öz bayramlarını böyük iftixarla, həmçinin qazandıqları uğurlarla qeyd edirlər.



Ölkəmizdə gənclər siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev gəncləri Azərbaycanın gələcək qurucuları adlandırır, onların imkan və bacarıqlarını yüksək qiymətləndirirdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkan verdi. Müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan gəncləri günü elan edilməsi, dövlət proqramlarının qəbulu Heydər Əliyevin gənclərə böyük qayğısı idi.

Möhtərəm Prezident cənab İlham Əliyevin bu istiqamətdə qəbul etdiyi qərarlar, təsdiq etdiyi dövlət proqramları da uğurla icra olunur və öz müsbət nəticələrini verir. 2006-cı ildə Dövlət başçısının fərmanı ilə Gənclər və İdman Nazirliyi yenidən təşkil olundu, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyuldu. İndi bu nazirlik Azərbaycan gəncliyinin formalaşmasında mühüm rol oynayan ən böyük qurumdur.

Dövlətimiz ölkənin sabahını etibar edəcəyi yeni nəslin hazırlanmasına xüsusi önəm verir. Prezident İlham Əliyevin Fərman və Sərəncamları uğurla həyata keçirilir. Dövlət Proqramları gənclərin təhsili, ailə, məişət, məşğulluq məsələlərinin həllində mühüm rol oynayır. Dövlət başçısının Fərmanı ilə Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması, paytaxt və bölgələrdə "Gənclər evi"nin, "Gənclər Mərkəzi"nin istifadəyə verilməsi gəncliyin uğurlu gələcəyinə hesablanmışdır. İndi ölkəmizin əksər rayonlarında olduğu kimi Qobustan rayonunda da "Gənclər mərkəzi" fəaliyyət göstərir. Məqsəd gənclərin təşəbbüslərinin dəstəklənməsi və inkişaf etdirilməsi üçün şəraitin yaradılması, gənclər arasında vətənpərvərlik işinin gücləndirilməsi, onların sağlam inkişafı və asudə vaxtının təşkilidir.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi, onun kütləviliyinin artırılması da mühüm yer tutur. İndi bütün bölgələrdə olduğu kimi Qobustan rayonunda da İdman Olimpiya Kompleksi tikilərək istifadəyə verilib. 1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edən Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. İdmançılarımızın olimpiya və dünya çempionatlarında uğurlu çıxışları bunu təsdiq edir. Beynəlxalq yarışlarda qələbə qazanan idmançıların layiqincə qiymətləndirilməsi onların yeni nailiyyətlərində mühüm rol oynayır.

Bütün bunlar Prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına və idmançılara göstərdiyi davamlı diqqət və qayğının nəticəsidir. Dövlət başçısının ailə üzvləri ilə birgə ayrı-ayrı yarışları birbaşa izləməsi, idmançılara dəstək olması, medal qazanan idmançıları şəxsən mükafatlandırması isə sadəlik və böyüklüyün gözəl nümunəsi kimi yaddaşlarda qaldı.

Gənclər, xüsusilə də könüllülər "Bakı-2015" ilk Avropa və Bakı-2017 dördüncü "İslam Həmrəyliyi" Oyunlarına böyük töhfə verdilər. Onlar Azərbaycanın gənc, müasir və qonaqpərvər bir ölkə olmasını dünyaya göstərmək üçün əsl fədakarlıq göstərdilər. Dövlətimizin başçısı könüllülərin fəaliyyətini də yüksək qiymətləndirdi.

Möhtərəm Prezident cənab İlham Əliyev ölkə gənclərinin bir qrupu ilə görüşündə bildirmişdir ki, "Biz Azərbaycanda güclü, özünəgüvənən dövlət qururuq və bu dövlət əbədi yaşamalıdır" bundan sonra gənclər cəmiyyətin bütün işlərində daha fəal rol oynamalıdırlar.

Prezdentimizin siyasəti sabaha və uğurlara hesablanan, sağlam və intellektual nəslin formalaşmasına xidmət edən bir siyasətdir, Azərbaycanın gələcəyinə qoyulan sərmayədir. Bütün bunlar isə o deməkdir ki, Azərbaycan sağlam gəncliyi və sağlam gələcəyi olan ölkədir. Qobustan rayon gəncləri də Prezidentimizin apardığı gənclər siyasətində fəal iştirak edirlər. Qobustan gənclərinə göstərilən qayğı və dəstəyə görə Qobustan gəncləri adından ölkə rəhbəri cənab İlham Əliyevə və Qobustan Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədova öz təşəkkürümü bildirirəm.

***Niyal Xanəliyev***

# Uşaqlarda özünəqapanma

***Son zamanlar cəmiyyətdə geniş yayılmış problemlərdən biri də özünəqapanmadır. Bu istənilən yaş dövründə olan insanlar üçün xarakterik olsa da, uşaqlarda daha çox müşahidə olunur. Gündəlik həyatda təsitrinə məruz qaldığımız sosial və psixoloji amillər özünəqapanmanı daha da sürətləndirir. Hazırki dövrdə bu problem ən aktual mövzular içərisindədir və getdikcə gəncləşir. Özünəqapanma probleminin yaranma səbəblərini və ona təsir göstərən amilləri vaxtında aşkar etməklə aradan qaldırmaq mümkündür.***

### *Özünəqapanma nədir?*

Özünəqapanma insanın ətrafındakılara emosional kontaktının zəifləməsi şəklində təzahür edən davranış formasıdır. Bu zaman insan öz problemlərini kimsəyə bölüşmək istəmir, o öz çətinliklərini təkbaşına həll etməyə cəhd göstərir ki, bu da çox zaman uğursuzluqla nəticələnməklə yanaşı, dost seçimində tərəddüdlər, ən ağır formada isə ailə üzvləri və cəmiyyətdəki digər insanlarla ünsiyyətin minimuma enməsi şəklində müşahidə olunur. Umumi davranışların dəyişməsi, əhval-ruhiyyənin tam səmimiyyətlə biruzə verilməməsi, qarşı tərəflə emosional kontaktın zəifləməsi özünəqapanma problemini şərtləndirən amillər sırasındadır.

### *Özünəqapanmaya səbəb olan əsas amillər hansılardır?*

Özünəqapanmanın formalaşmasına aşagıdakı həm psixoloji, həm də sosioloji amillər təsir göstərir.

**1.** Özünəgüvənin aşağı salınması -uşağın ailə daxilində daim danlanması, əsassız təhqirlərə məruz qalması onda özünə inamsızlığın yaranmasına səbəb olur ki, bu da özünəqapanmaya gətirib çıxarır. Adətən valideynlər evin ilk uşağını yaşından aslı olmayaraq "böyük uşaq" adlandırırlar. Ən kiçik nöqsanda belə "sən böyüksən, bu işi belə görməlisən, bunu düz etmədin " və s. kimi sözlərdən istifadə edirlər. Bu yanaşmalar uşaqlarda belə düşünmə formalaşdırır ki, sanki o heç nəyi bacarmır, qabiliyyətsizdir, heç bir işin öhdəsindən gələ bilməz. Belə düşüncələr uşaqda utanmağa , ailə üzvlərindən kənarlaşmağa əsas verir. Uşaq onu istəyənlərin səmimiyyətinə o vaxt inanır ki, o istəyi dərk edir. Demək uşaqlar davranışlara daha həssasdırlar. Bu səbəbdən də sevgimizi onlara sözlə deyil əməllərimizlə bölməliyik. Ailəsi tərəfindən təmənnasız sevilən uşaq özünüqiymətləndirmədə çətinlik çəkmir, özünəgüvəni yüksək olur.

**2.** Uşağın dostları kimlərdir ? Ən önəmli məsələlərdən biri budur ki, uşağın dost çevrəsi möhkəm olsun. Düzgün dost seçilməməsi, çətinlikləri bölüşəcəyi birinin olmaması uşağı cəmiyyətdən daha da uzaqlaşdırır.

Bu proses böyüklərdə də özünü göstərir. İnsanın yaşantıları onun düşüncələrini formalaşdırır. Müəyyən müddət sonra insan yaşadıqları ilə yüklənir. Bu səbəbdən ətrafımızda güvənə biləcəyimiz dostlarımızın olması vacibdir.

**3.** Uşaq virtual aləmlə nə dərəcədə bağlıdır? Son zamanlarda uşaqların əksəriyyətində rast gəlinən internet asılılığı özünəqapanmanın formalaşmasına gətirib çıxaran amillər sırasındadır. Uşaqların gününün yarıdan çoxunun kompyuter qarşısında keçməsi virtual aləmə hədsiz bağlılıq, telefondan aşırı istifadə real ünsiyyəti minimuma endirib, özünüqapanmanı maksimuma çatdırıb. Valideynlərin üzərinə düşən vəzifə isə uşağın internetdən istifadəsinə nəzarət etməkdir.

### *Özünəqapanmanı aradan qaldırma yolları*

Öncə valideyn uşaqla dostluq münasibəti qurmalıdır. Çünki, uşaqda özünə qarşı güvən duyğusu yaratmaq onun mənəvi sferasına daxil olmaq əsas addımlardandır. Onun uğurlarını qiymətləndirməli, uğursuzluq zamanı isə tənbeh yerinə nöqsanları aradan qaldırmağa birgə səy göstərməkdir. Ailə daxilində valideynlər uşaqlara yaşlarına görə davranmalıdırlar. Uşaqları başqa uşaqlarla müqayisə edib, konflik yaratmaq əvəzinə, uşağın sahib olduğu bacarıqları həyata keçirməsinə imkan yaratmalıdır.Uşağın sosiallaşması prosessində ləngimənin qarşısını almaq üçün internetə aşırı bağlılığı aradan qaldırmalıyıq. Bu zaman uşağın ailədə normal ünsiyyətə qovuşması, fikir yürütməsi üçün şərait yaratmalıyıq. Unutmamalıyıq ki, son dövrlərdə uşaq intiharlarının sayı artıb. Bu gün özünəqapanmanın qarşısı alınmazsa sabah intihar halları qaçılmaz olacaq.

***Sevil Kərimova,***
***Qobustan şəhər 2 saylı tam orta məktəbin psixoloqu***

# Qobustan rayonunda Novruz bayramı münasibəti ilə tədbir keçirildi













*Qobustan rayonunda Novruz bayramı münasibəti ilə tədbir keçirildi. Xalqımızın müqəddəs bayramı olan Novruz hər gəlişi ilə ürəklərə hərarət,könüllərə təravət gətirir.Soyuq qış aylarından sonra təbiətin oyanışı,dağ və yamacların yaşıl örpəyə bürünməsi insanlarda həyat eşqini daha da artırır.*

Belə bir vaxtda hər kəsin ürəyində bir arzu baş qaldırır ki, o da gündən günə çiçəklənən müstəqil Azərbaycanı bundan sonra da firavan görmək. Bu günlər respublikamızın bütün bölgələrində bayram əhval-ruhiyyəsi hökm sürür.

Tədbir Qobustan rayon İdman Olimpiya Kompleksində təşkil edilmişdir. İdman Olimpiya Kompleksinin önündə böyük bir tonqal qurulmuşdur. Qobustan Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov bayram tonqalını alışdırdı və bayram tədbiri başlandı. Rəsmi hissə Qobustan rayon İdman Olimpiya Kompleksində davam etdi. Tədbirdə Qobustan rayon icra hakimiyyətinin başçısı cənab Adil Məmmədov çıxış edərək bütün qobustanlıların bayramını təbrik edərək qürurla vurğuladı ki, Novruz xalqımızın sevimli bayramıdır.Əsrlər boyu yurdumuzda bu bayram təntənə. coşqu ilə qeyd edilir. Azərbaycanda hər il mart ayında qeyd olunan xonçalı, xoş qədəmli, ruzi-bərəkətli Novruz baharın gəlişi, təbiətin canlanması, torpağın oyanışı ilə bağlıdır.Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər üzərində qurulub. Bu gün keçirilən Novruz bayramı hamı da xoş ovqat yaradır.A.Məmmədov çıxışının sonunda Qobustan rayonuna göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə təşəkkürünü bildirdi.

Rəsmi hissə bitdikdən sonra Novruz bayramı şənliyi başladı.Novruz bayramı şənliyində özfəaliyyət dərnəyinin, rəqs və mahnı qruplarının çıxışları rəğbətlə qarşılandı. Xalqımızın qədim ənənələrinin, dəyərlərinin, əl işlərinin, məişətinin tərənnümü tədbirə xüsusi bir gözəllik verirdi. Tədbir konsert proqramı ilə davam etdi.



# "Novruz sevinci"- Qobustanda ödənişsiz tibbi müayinə

***Baharın gəlişi və Novruz bayramı münasibəti ilə bu gün Azərbaycan Uşaq Fondu, "Sağlam Ailə Tibb Mərkəzi" və PROAKTİV şirkətinin birgə təşkilatçılığı ilə Qobustan şəhərində "Novruz sevinci" adlı ödənişsiz səyyar tibbi müayinə həyata keçirilib.***

Aksiyada tibbi xidmətdən keçmək istəyən 350 nəfərdən çox uşaq "Sağlam Ailə Tibb Mərkəzi"nin təqdim etdiyi terapevt, dermatoloq, pediatr, oftalmoloq, USM, EKQ və qanda şəkərin təyini müayinələrindən faydalanıblar.

PROAKTİV şirkətinin direktoru Şahanə Sarı bildirib ki, səyyar tibbi müayinənin əsas məqsədi əhali arasında profilaktik müayinə mədəniyyətini, sağlam həyat tərzini təbliğ etmək, həmçinin dövlət siyasətinin, xüsusən Heydər Əliyev Fondunun xeyirxah missiyasının davamı olaraq az təminatlı və ehtiyacı olan vətəndaşlar üçün pulsuz müayinələrin həyata keçirilməsini təşkil etmək, əhalinin bayram sevincinə sevinc qatmaqdır. Respublika uşaq Fondunun sədri Aqil Məhərrəmov rayonda keçrilən bu xeyirxah aksiyanın Qobustan şəhərində keçrilməsində iştirak etdi.









Qeyd edək ki, ölkəmizin müxtəlif bölgələrində gələcəkdə də müxtəlif sosial layihə və aksiyaların həyata keçirilməsi nəzərdə tutulub.

***Qurban Kərimov***

# Tibbi müayinə davam edir









**Prezidentimiz İlham Əliyevin ölkə əhalisinin tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq, Rayon İcra Hakimiyyətində tədbirlər planı hazırlanmış və fevralın 10-dən əhalinin tibbi müayinəsinə başlanılmışdır.**

Əhalinin tibbi müayinədən keçməsi ilə bağlı dövlətimizin başçısının verdiyi tapşırıq və tövsiyələr rayonumuzda da yüksək səviyyədə icra olunur. Fevralın 10-dan mayın 1-nə qədər humanitar aksiya çərçivəsində 45914 sakinin tibbi müayinədən keçirilməsi nəzərdə tutulub.

Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə yaradılmış komissiya sakinlər arasında geniş təbliğat və məlumatlandırma işləri aparır. Bunun nəticəsidir ki, əhali aksiyada mütəşəkkil sürətdə iştirak edir. Tibbi müayinənin gedişatı rayon rəhbərliyinin diqqət mərkəzindədir.

Müayinələr əvvəlcədən tərtib olunmuş qrafik əsasında həyata keçirilir. Tibbi müayinə Qobustan MRX-da, Təklə və Sündü KSX-da həyata keçirilir. Halhazırkı dövrə qədər 3923 nəfər tibbi müayinədən keçmişdir. 3671 nəfəri sağlam hesab edilmişdir. Bunlardan 217 nəfər ambulator müalicəyə, 18 nəfər stasionar müalicəyə qəbul olunmuşdur. 17 nəfər Bakı şəhərinə müalicəyə göndərilmişdir. Tibbi müayinəyə 19 yaşayış məntəqəsi cəlb edilmişdir. Təklə yaşayış məntəqəsində tibbi müayinə başa çatmışdır. 25.000-dən artıq əhalinin tibbi müayinədən keçməsi nəzərdə tutulmuşdur.

Tibbi müayinələrin məqsəd və əhəmiyyəti barədə əhali arasında müntəzəm olaraq maarifləndirmə işi aparılır. İndiyənə qədər vətəndaşlardan heç bir şikayət daxil olmayıb. Biz çalışacağıq ki, bu müddət ərzində bütün əhalinin tibbi müayinəsini başa çatdıraq.

# Müasir təhsilin tələbləri



***Dövlətimiz Bütün sahələrə olduğu kimi təhsil sahəsinə də çox diqqətlidir. Beləki, son illərdə təhsildə aparılan yeni islahatlar təhsilimizin səviyyəsini daha da yüksəltmişdir.***

Sonuncu islahatlardan olan 5 yaşlı uşaqların məktəbəhazırlıq qrupları öz səmərəsini verməkdədir. Bu barədə Qobustan şəhər A.O.Çernyayevski adına 1 saylı tam orta məktəbin İbtidai sinif müəllimi Nisə Ağayeva öz fikirlərini bölüşmüşdür.

Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş məktəbəhazırlıq qrupları üçün lazımı şərait yaradılmışdır.Beləki, məktəbimiz kitablar, maqnit lövhə və hərflər, bütün mövzuları əhatə edəcək ayrı-ayrı əyani vəsaitlərlə təmin olunmuşdur. Bu da biz müəllimlərin işinin səmərəsini artırır .

Məşğələlər uşaqların şifahi nitq bacarıqlarını, hesablama (10 dairəsində) vərdişlərini, təsviri fəaliyyət - rəsm və yapma işlərini, musiqini, bədii təfəkkürünü inkişaf etdirir. Bu müddət ərzində uşaqlar Vətənə, anaya bayrağa aid şeirlər və mahnılar öyrənmişlər. Fəxrlə deyə bilərəm ki, bütün uşaqlar keçilən mövzuları gözəl qavrayır və mənimsəyirlər.

Uşaqların hər gün məktəbə böyük sevinc və həvəslə gəlməsində, məşğələnin başlamasını səbirsizliklə gözləmələrində bilavasitə valideynlərin də rolu böyükdür. Uşaqların məktəbə cəlb olunması və təlimin səviyyəsinin yüksək olmasında isə müəllim əməyi əvəzsizdir.



İşlədiyim bu 17 il ərzində həmişə öz üzərimdə böyük bir məsuliyyətin olduğunu bilərək vətən övladları üçün bacarığımı əsirgəməmişəm. Bundan sonra da bu körpə fidanların mariflənməsi, savadlanması yolunda yorulmadan çalışacağam.

***Ağayeva Nisə,***
***A.O.Çernyayevski adına Qobustan şəhər 1 saylı tam orta məktəbin müəllimi***

# Rabitə və Yüksək Texnologiyalar Naziri Ramin Quluzadə Qobustan şəhərində görüş keçirib







***Bu gün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Naziri Ramin Quluzadə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Qobustan şəhərində görüş keçirib.***

Qobustan, Şamaxı, Ağsu və İsmayıllı rayonlarının sakinlərin iştirak etdiyi qəbulda vətəndaşların telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələlərlə bağlı müraciətləri dinlənilib və əksər məsələlər yerində həllini tapıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

Bəzi vətəndaşların nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətləri isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Regiona səfəri çərçivəsində Ramin Quluzadə aidiyyəti rayonların telekommunikasiya qovşaqları, poçt filialları, eləcə də, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələrinin və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirib.

Sektor üzrə mövcud durum, çatışmazlıqlar, nöqsanlar, vətəndaş şikayətləri üzrə geniş müzakirələrin aparıldığı müşavirədə həyata keçirilən islahatların vətəndaş məmnunluğu və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəldiyi diqqətə çatdırılıb.

Toplantıda nazir müvafiq sahə rəhbərlərinə hər bir vətəndaş müraciətinin operativ araşdırılması və qanunvericiliyə uyğun həll edilməsi haqqında tapşırıqlar verib.

***Ruslan Şahbazov,***
***Redaktor***

# "31 mart - Azərbaycanlıların soyqırımı günü" ilə əlaqədar Qobustan rayonunda tədbir keçirildi









***Hər birinizə məlumdur ki, təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırımı siyasəti həyata keçirmiş, son iki əsrdə Qafqazda Azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır.***

Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində Azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazi deyil, Bakı quberniyasının Bakı, Şamaxı, Quba şəhəri, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər.

Qobustan Rayon İcra Hakimiyyəti başçısı Adil Məmmədov Azərbaycanda, o cümlədən Qobustanda törədilən soyqırımlardan ətraflı danışdı. Bildiyimiz kimi, Qobustan rayonu o vaxt Şamaxı qəzasının tərkibində idi. Bizim rayon da erməni vəhşiliyinə ən çox məruz qalan bölgələrdən biri olmuşdur. Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi.

Çıxışında bildirdi ki, ümummilli liderimiz Heydər Əliyev 31 martı Azərbaycanlıların soyqırımı günü kimi təsdiq etməklə tariximizdəki səhvi aradan qaldırıb, düşmənlərimizi bir daha özümüzə tanıtdı. Keçmişin dərslərindən bu gün üçün düzgün nəticə çıxarmaq yolunu göstərdi. Önündə durduğumuz abidə bizi həmişə ayıq-sayıq olmağa, yaddaşımızı daşlaşdırmağa, unutqan olmamağa, milli vəhdətə, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə səsləyir, şəhidlərin ruhunu qələbəyə çatmaqla şad etməyə haraylayır. Əbədiyyətə qovuşmuş türk əsgərlərinin məzarları ziyarət edilir, soyqırım vəhşətləri öyrənilir və yenilir, gənclərə öyrədilir.

Sonra Qobustan rayon Çuxanlı və Təklə tam orta məktəblərinin şagirdləri soyqırım haqqında kompazisiya təqdim etdilər.

Sonda isə Qobustan rayon "Heydər Məscidi"nin axundu Çingiz Babaşov şəhidlərin ruhuna dua oxudu.

# Qobustan rayon Ərəbşalbaş kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi





***Qobustan Rayon Ərəbşalbaş kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi. Görüşdə ilk öncə Ərəbqədim kənd İƏD üzrə nümayəndə Solmaz Mehraliyeva hesabat verərək ötən il ərzində kənddə görülən işlər barədə danişdı. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki, əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır.***

Ərəbşalbaş kəndinin 810 ha əkinə yararlı sahələri vardır. Bu il 763 ha əkin işi aparılmiş 331 ha buğda, 428 ha arpadır, 4 ha sarımsaq, 40 ha herik şumu çıxarılmışdır.Ərəbşalbaş İƏD üzrə nümayəndə Solmaz Mehraliyeva qeyd etmişdir ki,



hal-hazırda Ərəbşalbaş kəndi 804 təsərrüfat olmaqla 4952 nəfər əhali təşkil edir. Ərəbşalbaş kəndində 1 tam orta məktəb, 1 kitabxana , həkim ambulatoriyası və Poçt Şöbəsi, kənd klubu fəaliyyət göstərir. Kənd əhalisinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır.

Sonra kənd əhalisindən Orucov Elçin, Bayramov Sibran,Bayramov Mətləb çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdilər. Kəndin məktəbinin yenidən qurulmasını xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov çıxış edərək bildirdi ki, kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl etdiyini və ziyanvericilərə qarşı aparılan mübarizənin qənaətbəxş hesab edildiyini vurğuladı. RİH başçısı cənab A. Məmmədov bildirdi ki, fevral ayının 17-dən sonrakı hər həftənin şənbə və bazar günləri rayon ərazisində yarmarkalar fəaliyyət göstərir. Hər bir kənd sakininin bu işdə fəal iştirak etməllərini tövsiyə etdi. Sonda RİH başçısı cənab A. Məmmədov sakinlərin təkliflərini nəzərə alaraq o sahələrə məsul olan şəxslərə öz tapşırıqlarını verdi. Kənd sakinlərinin əsas əziyyət çəkdikləri məktəb probleminin də yaxın vaxtlarda öz həllini tapacağını bildirdi Kənd sakinlərinə gördükləri işlərdə uğurlar arzuladı.

# "Özü kiçik, zəkası parlaq olan məktəbli Aynurə"

***Qəzetimizin bu buraxılışında mənim müsahibim öz zəkası ilə fərqlənən Qobustan şəhər 2saylı tam orta məktəbinIX sinif şagirdi Ağayeva Aynurə ilə tanış olaq.***

Əvvəlcə Aynurəni tanıyaq . Aynurə 2003-cü ilin oktyabr ayının 8-də Qobustan şəhərində anadan olub. 2009-cu ildə məktəbə qədəm qoyan Aynurə valideynlərinin məlumatına görə o, elə uşaq yaşlarından elmə çox böyük diqqətlə yanaşıb,yaşıdları arasında seçilməyi bacarıb. Müəllimləri ilə də apardığımız söhbət zamanı Aynurənin çalışqan, məsuliyyətli bir şagird, hətta zəkasının parlaq olduğu qeyd olundu. Müxtəlif illərdə müxtəlif nailiyyətlər qazansa da o bu nailiyyətlərlə kifayətlənməyi sevmir. Hər bir uğurda qarşısına daha böyük məqsədlər qoyaraq, böyük uğurlara doğru addımlayır.

***-Salam, Aynurə xoş gördük.***

-Salam. Cox sağ olun

***-Bilirəm tərifIənməyi sevmirsiz : Ona görə də mən suallar verim , sən də cavablandır. Olar?***

-Bəli,olar

***-Neçə yaşınız var?***

-14

***-Oxumağa marağınız necə bu səviyyəyə çatıb?***

-Uşaqlıqdan daima kitaba, qələmə çox həvəsim olub. Özümü həmişə yerlərdə görmüşəm. Ona görə də bu arzumun ardınca düşdüm və elmə marağım belə artıb.

***- Aynurənin ən sevdiyi fənn desəm?***

-Təbii ki Coğrafiya.

***-Ən yüksək və az topladığın bal?***

-Ən yüksək 604; ən az 284 bal

***-Alim olmaq asandır səncə yoxsa adam?***

-Ən çətin adam olmaqdır. Alimlik asandır. Hər kəs alim ola bilər. Amma adam olmaq hər kəsə nəsib olmur.

***-Yaxşı bir mütəxəssis olmaq üçün səncə hansı şəxsi keyfiyyətlər insanda olmalıdır?***

-Yaxşı mütəxəssis olmaq üçün ilk olaraq inam və səbr insanda olmalıdır. Bu iki keyfiyyət olduğu müddətdə insan öz gücünü və iradəsini rahatlıqla göstərə bilər.

***-Ən çox sevindiyin uğurun hansıdır?***

-Bu yaxınlarda zona üzrə keçirilən Olimpiadada yer tutmağım ən böyük və ən sevindiyim "həlеki" uğurum olub. Bir də dekabr ayında Qobustan, Ağsu,İsmayıllı, Kürdəmir, Şamaxı rayonları arasında keçirilən "Bilik yarışında" siniflər arasında III yerə layiq görülmüşəm buda sevindiyim bir başqa uğurumdumdur.



***-Gələcəyə doğru planların nələrdir?***

- Ali təhsilə yiyələnmək, öikəmi ən yaxşı şəkildə təmsil etmək.

***-Qarşıda sizi buraxılış imtahanı gözləyir. Həyəcanlısan? Səncə imtahan nəticən necə olacaq?***

-Bəli həyəcanlıyam. Mən də yoldaşlarım kimi, inanıram ki, imtahandan uğurla çıxıb hədəflərimdən biri olan "Qırmızı Attestata" sahib olacağam. İmtahan verən bütün həmyaşıdlarıma da uğurlar arzu edirəm.

***-Səncə uğura gedən yolda əsas olan nədir?***

-Məncə, əzm və iradəsi olmalıdır.

***- İctimai işlərdə necə fəalsan?***

-Bəli, şeir deməyi, inşa yazmağı və rəsm çəkməyi çox sevirəm.

***-Ən çox sevdiyin seiri desəm?***

-Bütün Azərbaycan şairlərinin şeirləri mənalı və möhtəşəmdir.Amma ən çox sevdiyim şeirlərdən biri Rəsul Rzanın "Çinar" şeiridir.

***-İnşa müsabiqəsində iştirak etmisənmi?***

-Bəli, 2016-cı il aprel şəhidlərimizə həsr olunan "Əsgər qardaşıma məktub" müsabiqəsində məktəb üzrə birinci seçilmişəm.

***-Ən çox gerçəkləşməsini istədiyin hansı arzun var?***

-Əvvəlcə Qarabağ torpaqlaımızın azad olunmasını və ora səyahət edim, daha sonra dünyanın fəthinə çıxmaq istəyirəm.

***-Səninlə söhbət xoş idi-Sənə minnətdarlığımı bildirir qarşıdakı imtahanlarda və planlarında uğurlar arzu edirəm.***

Bəli bu da bizim özü kiçik zəkası parlaq olan məktəbli Aynurə ilə söhbətim idi. Ona bu səmimi və mənalı söhbət üçün təşəkkür edirəm.

# Qobustan ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyasının növbəti mərhələsinə start verilib

**15.03.2018-ci il tarixdə Prezident İlham Əliyevin tapşırığına əsasən Qobustan ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyasının növbəti mərhələsinə start verildi. Layihə üzrə tərtib olunan səfər proqramına əsasən martın 15-də Qobustanın 30 məktəbindən 40 nəfərlik qrup Quba şəhərinə yola salındı. Rayon rəhbərliyinin, təhsil işçilərinin, valideynlərin iştirak etdikləri yolasalma mərasimindən əvvəl tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş və gül dəstələri qoymuşlar.**








Yolasalma mərasimində 2 saylı tam orta məktəbin müəllimi Mürsəlov İntiqam İmran oğlu çıxış edərək qeyd etdi ki, bu tur-aksiyası Azərbaycanın bir parçası olan Lənkəran-Masallı-Astara rayonları, onların zəngin tarixi, bu günü barədə geniş bilgilər əldə etməyə imkan verəcək. Tur-aksiyanın əhəmiyyətindən, məktəblilərin vətənpərvərlik tərbiyəsindəki rolundan danışdı. Bu layihə Azərbaycanın bölgələrini qarış-qarış gəzərək orada olan Heydər Əliyev Mərkəzləri, Gənclər Mərkəzləri və tarixi abidələrlə tanış olmağa yaxından kömək göstərəcəkdir.Tur aksiyasında iştirak edən məktəblilərdən Qasımova Gülşən və Rəcəbov Tacir bu aksiya ilə bağlı fikirlərini söylədilər və Prezident cənab İlham Əliyevə məktəblilərə göstərdiyi diqqət və qayğıya görə təşəkkür etdilər.

Məktəblilər Lənkəranda Heydər Əliyev Mərkəzi qarşısında qarşılanacaq. Sonra aksiyanın 1-2-ci günləri məktəblilər Lənkəran şəhəri ilə tanış olacaqlar. Heydər Əliyev Mərkəzinə, Bayraq Meydanına, Gənclər Mərkəzinə ekskursiya edəcəklərilər. Lənkəran şəhərində "Qoşa Qala" qapılarına, Həzi Aslanovun ev muzeyinə, Dairəvi qalaya, Mayak binasına baxış keçiriləcək. 3-cü gün Masallı şəhərinə çatma və şəhərlə tanış olma olacaq. Heydər Əliyev Mərkəzinə, Tarix-diyarşünaslıq muzeyinə, Heydər Əliyev parkına, Uşaq İncəsənət məktəbinə, Bayraq Meydanı və Dövlət Rəmzləri muzeyinə, Olimpiya İdman Kompleksinə, ASAN həyat kompleksinə, Viləşçay su anbarına səyahət edəcəklər.Daha sonra Astara şəhərinə çatma və şəhərlə tanış olma, Heydər Əliyev Mərkəzinə, Gənclər Mərkəzinə baxış, Bulvara, "Yanar Bulağa"ekskursiya, Astara çay fabriki ilə tanışlıq olacaq.

Müşayiətçi-müəllim Cahid Nəzərov dedi: "Tur-aksiya çərçivəsində şagirdlər nəinki olacaqları rayonlar barədə ətraflı məlumatlandırılacaq, habelə onların gözəl istirahəti üçün də hər cür şərait nəzərdə tutulub. Hər şeydən əvvəl uşaqlara qayğıdan, onların vətənpərvər ruhda tərbiyəsinə göstərilən diqqətdən irəli gələn bu təşəbbüsə görə Prezident İlham Əliyevə minnətdarıq".

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov tur aksiyası öncəsi şagirdlər, valideynlər və müşahidəçilərlə görüş keçirdi

***Qobustan rayon İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədov tur aksiyası öncəsi şagirdlər, valideynlər və müşahidəçilərlə görüş keçirdi.***



Çıxışında bildirdi ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanın şəhər və rayonlarının 9-11-ci sinif şagirdlərinin ölkəmizi daha yaxından tanıması, onun tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən öyrənməsi, tarixi-mədəni irsimizə sədaqət və hörmət ruhunda tərbiyə olunması, müstəqillik illərində qazanılan nailiyyətləri öz gözləri ilə görmələri üçün 2014-cü ilin avqust ayından başlayaraq Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin təşkilatçılığı ilə şəhər və rayon icra hakimiyyətləri tərəfindən bölgələrə maarifləndirici tur-aksiyalar təşkil olunur. Cənab Prezidentimizə regionlarımıza göstərdiyi bu diqqət və qayğıya görə təşəkkür etdi.

Beləliklə, "Ölkəmizi tanıyaq" adı altında 4 mərhələdə 7 istiqamət üzrə keçirilən maarifləndirici tur-aksiyalar Azərbaycanın dörd bir nöqtədə birləşdirdi. Belə səfərlərdə bizim günü-gündən çiçəklənən,inkişaf edən Qobustan rayonunun məktəbliləri də ildə iki dəfə iştirak edirlər. Ən əvvəl iki məqama diqqət edək: səfər zamanı məktəblilərin rahatlığı üçün hər şey düşünülmüşdür. Hər ekskursiya qrupu 40 nəfər şagird, 5 nəfər müəllim-müşayiətçi daxil olmaqla 45 nəfərdən ibarət olur. İştirakçılar üçün xüsusi geyimlər hazırlanır. Hər cür rahatlığı ilə seçilən müasir avtobuslar da məktəblilərin ixtiyarına verilir. Şagirdlər getdikləri rayonların ən müasir otellərində qalır, gəzdikləri istirahət mərkəzlərinin bütün xidmətlərindən istifadə edirlər və 4 günlük vaxt isə rayonların tarixi, sosial-iqtisadi inkişafı, mədəni mühiti, özünəməxsus adət-ənənələri ilə tanışlıq üçün yetərli idi. Digər bir vacib məsələ: məktəblilər hər yerdə rayonların rəhbər qurumları, ziyalılar, müəllimlər, valideynlər tərəfindən təntənə ilə yola salınır, hər yerdə də eyni ovqatla, eyni əhvali-ruhiyyə ilə qarşılanırlar. Bu, bir tərəfdən ekskursiyaların yüksək səviyyədə təşkilindən, onun əhəmiyyərindən xəbər verirsə, digər tərəfdən xalqımızın əsrlərdən gələn, bu gün də məhəbbətlə qorunan adətinin - qonaqpərvərliyinin, böyük-kiçiyə hörmətin ifadəsi idi.

# Qobustan Rayonunun 2017-ci ilin yekunlarına dair iqtisadi göstəriciləri

2017-ci ilin yanvar-dekabr aylarında rayonda 165055,0 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bundan 46,5 faizi və ya 76791,7 min manatı istehsal sahələrinin payına düşür. 2017-ci ilin yanvar-dekabr aylarında sənaye məhsullarının ümumi həcmi və göstərilmiş xidmətlər 1944,5 min manat və ya ümumi məhsul buraxılışının həcminin 1,2 faizini, kənd təsərrüfatının ümumi həcmi 75134,2 min manat və ya ümumi məhsul buraxılışının 45,5 faizini təşkil etmişdir ki, bunun da 26,5 faizi yəni 19877,0 min manatı bitkiçilik məhsullarının 73,5 faizi yəni 55257,2 min manatı heyvandarlıq sahəsinin payına düşür. Tikinti sektorunun ümumi həcmi 7739,8 min manat və ya ümumi məhsul buraxılışının 4,7 faizini, nəqliyyat sektoru üzrə 1889,9 min manat və ya ümumi məhsul buraxılışının 1,1 faizini, poçt və rabitə xidmətləri üzrə 305,5 min manat və ya ümumi məhsul buraxılışının 0,2 faizini və ticarət sahəsi üzrə isə 78041,1 min manat və ya ümumi məhsul buraxılışının 47,3 faizini təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi məhsul buraxılışı 126,7 faiz təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulunun ümumi həcmi 31,2 faiz, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 32,4 faiz, tikinti sektoru üzrə 2,8 dəfə, nəqliyyat sektoru üzrə 3,3 faiz, informasiya və rabitə sektoru üzrə 13,9 faiz və ticarət sektoru üzrə 16,1 faiz artım müşahidə olunmuşdur.

**Qobustan rayonu üzrə Makroiqtisadi göstəricilər**

**min manat**

| | 2017-ci il | 2017-ci il 2016-cı ilə nisbəti faizlə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı | 165055 | 126,7 |
| Sənaye məhsullarının ümumi həcmi | 1944,5 | 131,2 |
| Əsas kapitala yönəlmiş investisiya | 97745,0 | 104,2 |
| Kənd təsərrüfatı məhsullarının ümumi həcmi | 75134,2 | 132,4 |
| Nəqliyyat sek. yük daşınması (min ton) | 819 | 102,5 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 305,5 | 113,9 |
| Pərakəndə əmtəə dövriyyəsi | 63543 | 114,3 |
| Əhaliyə göstərilən pullu xidmət | 11248 | 111,2 |
| Bir işçiyə hesablanmış orta aylıq ə / h, manatla | 295,0 | 111,6 |
| Qeydə alınmış işsizlərin sayı , nəfər | 1313 | 88,9 |

***Qobustan Rayon Statistika İdarəsi***

# XOCALI SOYQIRIMI









***Xocalı soyqrımından 26 il ötür... Xalqımız hər il bu faciəni dərin hüznlə yad edir. Bu faciəni xalqımıza yaşadanlar isə insanlığın qənimi, torpağımıza sahib olmaq istəyən erməni qanicənləridir.***

İki imperialist dövlətin - Rusiya və İranın torpaqlarımızı bölüşdürmək üçün bağladıqları Türkmənçay müqaviləsi bütün qətliyamların başlanğıcını qoydu. Əzəli yurd yerlərimizdə məskunlaşan özlərini dost kimi qələmə verən, "fağır" ermənilər 1905-ci il qırğınını, 1918-ci ilin soyqrımınını, 1948-1953-cü illərin deportasiyasını, Qarabağ müharibəsini, Sumqayıt fitnəkarlığını və nə qədər izi açılmış və açılmamış hadisələri törətməklə əsl simalarını göstərmişdilər. "Böyük Ermənistan" yaratmaq xülyasıyla bu namərdlər Rusiya imperiyasının sadiq qulu olmuş, türklərə qarşı terror törətməklə, insanları vəhşicəsinə öldürməklə, körpələri süngüyə keçirməklə, yandırmaqla özlərini sübuta yetirmişlər.

1992 - ci ilin fevralın 26-da törədilən soyqrm bəşər tarixində olan bütün müsibətləri kölgədə qoydu. Qədim sivlizasiya mərkəzlərimizdən biri olan Xocalı şəhəri yerlə yeksan edildi, sakinləri insanlığa xas olmayan üsullarla öldürüldü. Aylarla mühasirədə olan şəhərin 22 nəfər müdafiəcisi var idi. Əlif Hacıyev və Tofiq Hüseyinovun başçılıq etdiyi bu dəstə son damla qanına qədər vuruşdular, düşmən əlinə keçməsin deyə dispetçer məntəqəsini partlatdılar, yüzlərlə insanın şəhərdən çıxmasına kömək etdilər.

Mərkəzdən əli üzülən Xocalı sakinlərindən 613 nəfər öldürüldü, 1275 nəfər əsir götürüldü, şəhər erməni vandalizminin qurbanı oldu... (63 uşaq, 70 qoca, 106 qadın)

Rusiyanın "Moskoviski komsomolets" qəzeti yazır (29 yanvar 1994 - cü il)

"Xocalıdan əsir gətirilənləri gördük. Lakin onlar daha yaşamağa yaramırlar. Qışın şaxtasında onları sübh tezdən yalınayaq qarın-buzun üzərinə çıxarırlar. Başlarından soyuq su tökür, başlarında şüşə sındırırlar... Bir erməninin bir azərbaycanlı uşağı ikiyə böldüyünün şahidi oldum. Sonra uşağın bədəninin bir parçası ilə anasının üzünə və başına o qədər vurdu ki, övladının qanına boyanan zavallı qadın dəli olub gülməyə başladı"

Bəli, erməni budur, rəzil, qorxaq yalnız əliyalın insanlara gücü çatan, riyakar "dost" dediyimiz namərdlər...

Respublikamızın bütün guşələrində olduğu kimi Qobustan şəhər 1 saylı tam orta məktəbin kollektivi bu faciə qurbanlarına həsr olunmuş xatirə gecəsi keçirdi. Daha sonra məktəb rəhbərliyi, müəllim və şagird kollektivi şəhidlər xiyabanına axın etdilər. Şəhidlərimizə, Xocalı qurbanlarına həsr olunmuş şeir və kompozisiyalar səsləndirildi.

Son arzu və diləklər isə bu oldu: Bu gün Lələtəpədə dalğalanan üç rəngli bayrağımızın Qarabağda sancılacağı günü səbirsizliklə gözləyirik.

***Vüsalə Əlisefaqızı,***
***Qobustan şəhər 1 saylı tam orta məktəbin tarix müəllimi***

# Elektron qaimə-faktura vergidən yayınmanın qarşısını alır, şəffaflığı təmin edir

***2017-ci ilə qədər sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturalar kağız formasında tətbiq olunurdu. Əməliyyatların şəffaflaşdırılması, rəsmiləşmə prosedurunun sadələşdirilməsi, operativliyin təmin edilməsi, inzibatçılıq xərclərinin azaldılması və sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınması məqsədilə ütən il Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edildi.***

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə elektron qaimə-fakturanın tətbiqinə başlanılması üçün hüquqi baza yaranıb. Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli 89 nömrəli qərarına əsasən, "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları" təsdiq edilib. Həmin Qaydaların 3-cü bəndi ilə elektron qaimə-fakturanın təsdiq edilmiş forma və rekvizitlərə uyğun olaraq mərkəzləşdirilmiş qaydada uçotunun aparılması və tətbiqi Vergilər Nazirliyinə tapşırılıb.

Vergi Məcəlləsinin 71-1-ci maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən edilən hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim olunmuş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən, digər vergi ödəyiciləri isə 2018-ci il yanvarın 1-dən elektron qaimə-faktura təqdim edirlər.

### E-qaimə-faktura necə hazırlanır?

Vergi ödəyiciləri elektron qaimə-fakturaları iki üsulla hazırlaya bilərlər. Birincisi, "Elektron imza"dan istifadə etməklə onlayn rejimdə. Ödəyici bu zaman İnternet Vergi İdarəsinin (www.e-taxes.gov.az) "Onlayn kargüzarlıq və e-VHF" bölməsini seçərək "Elektron qaimə" altbölməsinə daxil olur və onlayn rejimdə elektron qaimə-fakturanı tərtib edir və digər vergi ödəyicisinə təqdim edir. İkinci üsul oflayn rejimdir: vergi ödəyicisi elektron qaimə-fakturanı tərtib etmək üçün xüsusi proqram təminatını ("Elektron Faktura Tərtibatı Proqramı - eFP") İnternet Vergi İdarəsinin "e-Qaimə-faktura" bölməsinin "Lazımlı proqramlar" altbölməsindən öz kompüterinə yükləyir, tələb olunan qaimə-fakturaları bu proqram vasitəsilə internetdən istifadə etmədən hazırlayır və paketləyir. Sonra paket faylını oflayn rejimdə "Asan DOC client" və ya "e-İmzalayıcı" proqramların biri vasitəsilə imzalayır. İstifadəçi paket faylını "Asan DOC" portalı vasitəsilə də imzalaya bilər. Sonda gücləndirilmiş elektron imza vasitəsindən ("ASAN imza" və ya "Elektron imza") istifadə etməklə İnternet Vergi İdarəsinin "Onlayn kargüzarlıq və e-VHF" bölməsini seçib "Elektron qaimə" altbölməsinə daxil olur və imzalanmış "adoc" və ya "edoc" tipli faylı "Paket göndər" düyməsi vasitəsilə sistemə yükləyir. Yükləmə zamanı sistem tərəfindən elektron qaimə-fakturalara unikal seriya və nömrələr verilir və qarşı tərəfin elektron qutusuna göndərilir.

### Maarifləndirmə və təbliğat

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktorunun müavini Elçin Məmmədov elektron qaimə-fakturanın tətbiqi ilə bağlı vergi ödəyicilərinin hazırlıq səviyyəsini şərh edərək bildirib ki, e-qaimə fakturanın tətbiqinə başlanmazdan əvvəl vergi ödəyicilərinə xidmət strukturları tərəfindən maarifləndirici və məlumatlandırma-izahedici tədbirlər həyata keçirilib, vergi ödəyicilərinə xidmət mərkəzlərində bununla bağlı yarana biləcək sualların aradan qaldırılmasına zəruri kömək göstərilməsinə başlanıb: "2017-ci ilin yanvar ayından maarifləndirmə işləri çərçivəsində müxtəlif informasiya kanallarının imkanlarından istifadə olunub. Nazirliyin "195-1" Çağrı Mərkəzi və digər xidmət strukturları vasitəsilə ödəyicilərin elektron qutularına məktublar göndərilib. Həmin məktublarda e-qaimə fakturanın tətbiqi ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklər, onun tətbiqi və tərtibi qaydalarına dair izahedici məlumatlar, onun ödəyici üçün əhəmiyyəti, e-qaimə-faktura tətbiq olunmadığı halda nəzərdə tutulan məsuliyyət və digər informasiyalar əksini tapıb və sahibkarlara risklərin yaranmaması və onların maliyyə itkilərinə məruz qalmaması üçün qanunvericiliyin tələblərinə əməl etmələri tövsiyə olunub. E-qutulardakı məktubları oxumayan ödəyicilərə SMS-lər göndərilib. Regionlarda keçirilən silsilə görüşlərdə vergi ödəyicilərinə e-qaimə-faktura barədə geniş məlumatlar verilib, onların sualları ətraflı cavablandırılıb".

Qeyd edilib ki, vergi ödəyicilərinin məlumatlandırılması üçün Vergilər Nazirliyinin multimedia resurslarının, o cümlədən taxes.gov.az veb saytının və sosial media resurslarının imkanlarından da geniş istifadə edilib: "Böyük auditoriyaya malik "Facebook", "Twitter" sosial şəbəkələrində, "Youtube" hostinqində istifadəçilər arasında mütəmadi olaraq təbliğat işləri aparılıb. Bundan başqa, nazirlik ilə ATV kanalının birgə layihəsi olan "İqtisadi zona" verilişində ödəyicilərin maarifləndirilməsi üçün materiallar verilib. Nazirlik tərəfindən e-qaimə-faktura haqqında praktiki vəsait hazırlanıb və internet saytında yerləşdirilib".

E.Məmmədov elektron qaimə-fakturanın sahibkarlar üçün üstünlüklərini də vurğulayıb: "Sahibkarlar bilməlidirlər ki, elektron qaimə-fakturanın tətbiqi vergi ödəyicilərinin özləri üçün də mühüm əhəmiyyət daşıyır. Ən böyük üstünlük qaimə-fakturaların mətbəələrdə sifariş edilməsi və hazırlanması ilə əlaqədar xərclərin və vaxt itkisinin azaldılmasıdır. Nəticədə mətbəəyə müraciət etmədən, əlavə vaxt itkisinə yol vermədən, birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür".

### Müşahidələr göstərir ki...

Ərazi vergi orqanları ilə iş üzrə departamentin baş direktorunun müavini, Büdcə proqnozlarının icrasına nəzarət idarəsinin direktoru Nəsib İsgəndərovun sözlərinə görə, ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ötən ilin aprel ayının 1-dən mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə qaimə-fakturalar elektron formada təqdim edilir: "2017-ci il ərzində 7841 əlavə dəyər vergisi ödəyicisi tərəfindən 4.479.153 elektron qaimə-faktura təqdim olunub. Bu əməliyyatların ümumi dəyəri 23.520,7 milyon manatdan artıqdır. Aparılan təhlillər göstərir ki, ƏDV ödəyiciləri tərəfindən elektron qaimə-fakturaların təqdim edilməsində elə bir ciddi problem ortaya çıxmasa da, cari ilin yanvar ayının 1-dən etibarən e-qaimə-faktura təqdim etməli olan sadələşdirilmiş vergi ödəyiciləri hələ buna alışmayıblar və onların çoxu əvvəlki kimi e-qaimə-faktura təqdim etmədən fəaliyyət göstərirlər ki, bu da ciddi qanun pozuntusudur. Kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri də vergilərdən azad olmalarına baxmayaraq, onlar tərəfindən də malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı e-qaimə faktura təqdim edilməlidir. Bölgələrdə fəaliyyət göstərən bəzi istehsalçılar fikirləşə bilər ki, bazara quş əti, yumurta, süd, qatıq çıxarıramsa, e-qaimə-faktura təqdim etməməliyəm. Bu, qətiyyən belə deyil və regionlarda qida, o cümlədən quşçuluq, heyvandarlıq, südçülük məhsullarının istehsalçıları bazara çıxardıqları malların e-qaimə-fakturasını verməlidirlər.

Ailə-kəndli təsərrüfatı ilə məşğul olan şəxslər isə fərdi sahibkar hesab edilmədiyindən, onlardan e-qaimə-faktura tələb olunmur. Həmin sənədlərin təqdim edilməsi fərdi sahibkarlar və hüquqi şəxslərə aiddir. Amma bu sahədə də müvafiq araşdırmaların aparılmasına ehtiyac var, onların arasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin olub-olmaması müəyyən edilməlidir. Bu, mürəkkəb prosesdir, həmin şəxslərin fəaliyyəti, dövriyyəsi müəyyənləşdirilməli və bundan sonra vergi ödəyicisi kimi qeydiyyata alınması təmin olunmalıdır".

### Ödəyicilər dürüst uçot sistemi qurmağa ciddi yanaşmalıdırlar!

Bəzi vergi ödəyiciləri e-qaimə-fakturanı təqdim etməkdən niyə boyun qaçırırlar? Bəlkə hesab edirlər ki, bu sənədi tərtib etmək prosedurları çətindir, yaxud sənədlərin göndərilməsi rejimi mürəkkəbdir?

Vergi risklərinin təhlili və nəzarəti departamentinin Bəyannamələr idarəsinin direktoru Vüqar Əliyevin sözlərinə görə, e-qaimə-fakturanı tərtib etmək elə də çətin deyil. Sadəcə, bir çox ödəyicilər hələlik buna diqqətlə yanaşmırlar: "Vergi ödəyicilərinin e-qaimə-faktura təqdim etməməsinin müxtəlif səbəbləri var. Başlıca səbəb bəzi vergi ödəyicilərinin dürüst uçotunun olmaması və mühasibatı düzgün qurmaq istəməmələri ilə bağlıdır: "Ödəyici nə özü sənədi təqdim edir, nə də ondan mal alan şəxslərin e-qaimə-faktura təqdim etməsinə imkan verir. Hər iki tərəf dövriyyələrini gizlətmək üçün buna əl atır. Çünki e-qaimə-faktura sayəsində vergi ödəyicisinin bütün fəaliyyəti, onun gün, ay və il ərzində apardığı hər bir əməliyyat öz əksini tapır".

E-qaimə-fakturanın tətbiqi sahibkarlıq subyektlərində mühasibatın formalaşdırılmasını da zəruri edir. Hazırda bir sıra sadələşdirilmiş vergi ödəyicilərinin mühasibləri yoxdur, vergi bəyannamələrinin tərtib olunmasında onlara özəl vergi məsləhətçiləri kömək edirlər. Amma əslində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir şəxsin mühasibi olmalıdır.

### E-qaimənin sahibkarlar üçün böyük üstünlükləri var

V.Əliyevin sözlərinə görə, elektron qaimə-fakturanın tətbiqi ilk növbədə ödəyicilərin özləri üçün faydalıdır: "E-qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Elektron qaimə-fakturanın tətbiqi sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşməsi və xərclərin təsdiqedici sənədlərə malik olması deməkdir ki, bu da, şübhəsiz, vergi orqanları ilə yaranan bir çox mübahisələrin qarşısının alınmasına xidmət edir".

Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması bu sahədə vahid elektron baza formalaşdırır və bu da iş adamları arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə kömək edir.

### Cəza tədbirləri ilə üzləşməmək üçün qanuna əməl etmək lazımdır

Elektron qaimə-fakturaya etinasız yanaşan sahibkarlar bununla sanksiyalara məruz qalmayacaqlarını düşünməməlidirlər. Çünki qanunla müəyyən edilmiş öhdəliklərə riayət olunmadığına görə elektron qaimənin tətbiqindən yayınan sahibkarlar üçün çox ciddi cəza mexanizmi mövcuddur. Yəni səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcı təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə üzləşəcək. Lakin vergi orqanının məqsədi ödəyicilərə cərimə və sanksiyalar tətbiq etmək yox, sahibkarların və dövlətin iqtisadi maraqlarının qorunması, düzgün və şəffaf fəaliyyətin təmin olunmasıdır.

Vergi orqanı əməkdaşları ödəyiciləri yeni tətbiq olunan qaydalara riayət etməyə çağırır, onları qanunla müəyyən edilmiş öhdəlikləri yerinə yetirməyə dəvət edir. Vergi orqanlarının apardığı məlumatlandırma və maarifləndirmə işlərinin məqsədi də vergi ödəyicilərini dürüst uçot və düzgün mühasibat qurmağa təşviq etməkdir.

***4 saylı Ərazi Vergilər İdarəsi***

## 2018-ci ilin fevral ayı ərzidə vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə
## Y A D D A Ş

**2018-ci ilin yanvar ayına görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları**

✷ **Əlavə dəyər vergisi bəyannaməsi,**
✷ **Aksiz bəyannaməsi,**
✷ **Yol vergisi bəyannaməsi,**
✷ **Mədən vergisi bəyannaməsi,**
✷ **Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və**
✷ **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

cari ilin fevral ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

✷ **Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin ferval ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
✷ **Muzdlu işlə əlaqədar 2018-ci ilin yanvar ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin fevral ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 1-ci rübü üzrə bəyannaməni cari ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edirlər).
✷ **Xüsusi notariusların 2018-ci ilin yanvar ayı üzrə hesabladığı gəlir vergisi cari ilin fevral ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2018-ci ilin 1-ci rübü üzrə bəyannamə car ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

**Əmlak vergisinin ödəyiciləri olan müəssisələr**

✷ 2018-ci ilin 1-ci rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələrini fevral ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə **40 manat** məbləğində **maliyyə sanksiyası** tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün **0,1 faizi** məbləğində faiz tutulur (VM, 59).
**Hörmətli vergi ödəyiciləri,** Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

***Azərbaycan Respublikası Vergilər Nazirliyi***

## 2018-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə
## Y A D D A Ş

**2017-ci ilin yekunlarına görə**

✷ hüquqi şəxslər tərəfindən Mənfəət və Əmlak vergisinin bəyannaməsi,
✷ fiziki şəxslər tərəfindən Gəlir vergisinin bəyannaməsi cari ilin aprel ayının 2-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**Gəlir və mənfəət vergisinin ödəyiciləri tərəfindən**

2018-ci ilin 1-ci rübü üzrə hesablanmış cari ödəmələr aprel ayının 16-dan gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**2018-ci ilin mart ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları**

✷ Əlavə dəyər vergisi bəyannaməsini,
✷ Aksiz bəyannaməsini,
✷ Yol vergisi bəyannaməsini,
✷ Mədən vergisi bəyannaməsini,
✷ Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini və
✷ Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
✷ Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş vergi bəyannaməsi cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 1-ci rübünə görə vergi ödəyiciləri tədiyəçisi olduqları**

✷ Sadələşdirilmiş verginin bəyannaməsini
✷ Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
✷ Cari ilin 1-ci rübü üzrə Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və mart ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
✷ Xüsusi notariuslar gəlir vergisi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və mart ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
✷ Dövlər rüsumu haqqında hesabat cari ilin aprel ayının 20-dək vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

***

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).
Hörmətli vergi ödəyiciləri, Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

***

2018-ci ilin aprel ayının 1-i, 8-i və 15-i tarixlərində efirə gedəcək "İqtisadi Zona" verlişi üçün sətir elanları

**Vergi ödəyicilərinin nəzərinə!**

Hüquqi şəxslərin mənfəət və əmlak vergisi, fiziki şəxslərin gəlir vergisi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 02.04.2018-ci ildir.
Gəlir və mənfəət vergisi üzrə cari ödəmələrin son müddəti 16.04.2018-ci ildir.
ƏDV, Aksiz, Yol vergisi, Mədən vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 20.04.2018-ci ildir.
Sadələşdirilmiş vergi bəyannəməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.04.2018-ci ildir.
Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş vergi bəyannəməsinin təqdim edilməsinin son müddəti 20.04.2018-ci ildir.
Muzdlu işlə əlaqədar tutulan rüblük vergi bəyannəməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.04.2018-ci ildir.
Ödəmə mənbəyində tutulan vergi bəyannəməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.04.-2018-ci ildir.
Xüsusi notariusların gəlir vergisi bəyannəməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.04.-2018-ci ildir.
Dövlər rüsumunun tutulması barədə hesabatın təqdim edilməsinin son müddəti 20.04.2018-ci ildir.

***4 saylı Ərazi Vergilər İdarəsi***

## Qobustan rayon prokurorluğu əməkdaşları tərəfindən 2018-ci ilin aprel-iyun aylarında vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair
## Q R A F İ K

| Sıra N-si | Vətəndaşların qəbulu kecirilən ərazi | Qəbulun kecirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Qobustan rayonu İHB-nın Bədəlli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 28.04.2018<br>15-00-18-00 | Ramin Hüseynov<br>Rayon prokuroru |
| 2. | Qobustan rayonu İHB-nın Poladlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 24.05.2018<br>15-00-18-00 | Ramin Hüseynov<br>Rayon prokuroru |
| 3. | Qobustan rayonu İHB-nın Ərəbşalbaş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 29.06.2018<br>15-00-18-00 | Ramin Hüseynov<br>Rayon prokuroru |

**Qeyd:** Kəndlərdə qəbulların kecirilməsi ilə əlaqədar əvvəlcədən rayon İHB-nın kəndlər üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə və bələdiyyələrə məlumat verilməlidir.

***Qobustan rayon prokuroru kiçik ədliyyə müşaviri Ramin Hüseynov***

## İtmişdir

Xankişiyev Ağazaman Xangəldi oğluna məxsus dövlət aktı (JN-0635, Kod 30712018) itdiyi üçün etibarsız sayılır.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti

*Baş redaktor:* **Ruslan Şahbazov**
**Tel.: (050) 524 28 10**
**(070) 224 28 10**

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Ekspress Servis" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
**E_mail:qobustanqazeti@mail.ru**